Anar İSGƏNDƏROV

# "Sertifikatlaşdırma müəllim nüfuzunu artırmaq üçün ən uğurlu vasitələrdəndir"



"Sertifikatlaşdırma müəllim nüfuzunun artırılması üçün uğurlu bir addımdır. Əminəm ki, Azərbaycan ziyalıları bu prosesə kütləvi şəkildə qoşulacaqlar".

Bu fikirləri müəllimlərin sertifikatlaşdırılması imtahanının ikinci günündə təşkil olunan infoturda iştirak edən Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Azərbaycan müəllimi"nə açıqlamasında bildirib.

Komitə sədri qeyd edib ki, sertifikatlaşdırma müəllim nüfuzunu artırmaq baxımından ən uğurlu vasitələrdən biridir: "Əgər biz müəllimin cəmiyyətdə nüfuzunun yüksəlməsini istəyiriksə, bu prosesi dəstəkləməli və müdafiə etməliyik. Bu proses nəyi göstərir? Əgər müəllimdə savad, bacarıq və təcrübə varsa, o, uğur qazanır. Uğur qazanan müəllimin əməkhaqqı artır. Bu baxımdan biz Azərbaycan ziyalıları xırda boşluqları mübahisə mövzusuna çevirmək əvəzinə prosesi təqdir, təbliğ etməli və əgər varsa, çatışmazlıqların aradan qaldırılması üçün təkliflərimizi verməliyik".

Deputat əlavə edib ki, proses tam ədalətli şəkildə təşkil olunur. Heç kimə ayrı-seçkilik edilmir: "Mən əminəm ki, bu prosesdə iştirak edən müəllimlərin özləri də yalnız təşkilatçılığın peşəkarlığından və uğurlu keçirilməsindən danışa bilərlər".

...tər KƏRİMLİ

Azərbaycan müəllimi.
- 2025, №22.- S.6.